# ZƏFƏR gündəliyi

# 10 oktyabr

2020-ci il

**Oktyabrın 10-da** gecə hərbi əməliyyatlar müxtəlif intensivliklə davam edir, düşmənə atəş zərbələri endirilir.

Azərbaycan Ordusunun davam etdirdiyi hücum əməliyyatı nəticəsində bu müddətdə düşmənin xeyli sayda canlı qüvvəsi, 13 ədəd tankı, 4 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, 6 ədəd D-20 və D-30 topu, 3 ədəd 2S3 "Akasiya" özüyeriyən artilleriya qurğusu, 2 ədəd M55 "Zastava" zenit qurğusu, 2 radiolokasiya stansiyası və radioelektron mübarizə vasitələri dəqiq atəşlə məhv edilib sıradan çıxarılır.

❖❖❖

Düşmən Xocalı istiqamətindən Hadrutu yaylım atəşli reaktiv sistemlərdən intensiv atəşə tutur.

Həmçinin Goranboy, Tərtər, Ağdam, Ağcabədi və Füzuli rayonlarının yaşayış məntəqələri düşmən tərəfdən atəşə məruz qalır.

Ordumuz Ermənistan silahlı qüvvələrinə qarşı adekvat tədbirlər görür.

❖❖❖

Düşmənin ağır döyüş texnikaları bölmələrimizin sərrast atəşi ilə məhv edilir.

❖❖❖

Oktyabrın 9-da Ermənistan ərazisindən Mingəçevir istiqamətində atılan, lakin Azərbaycan hava hücumundan müdafiə sistemləri tərəfindən aşkar edilərək məhv edilən 9K72 "Elbrus" əməliyyat-taktiki raket kompleksinin vurulmasından sonra yerə dağılan qalıqları aşkarlanır.

❖❖❖



Tərəflər arasında bu gün saat 12:00-da atəşkəs elan olunması barədə razılıq əldə edilməsinə baxmayaraq, Ermənistan ordusu cəbhənin Ağdərə-Tərtər və Füzuli-Cəbrayıl istiqamətlərində hücuma keçməyə cəhd göstərir. Eyni zamanda bir sıra yaşayış məntəqəmiz Ermənistan silahlı qüvvələri tərəfindən artilleriya atəşinə məruz qalır.

Düşmənin bütün hücum cəhdlərinin qarşısı bölmələrimiz tərəfindən uğurla alınır. Ermənistan ordusuna qarşı adekvat cavab tədbirləri görülür.

❖❖❖

Atəşkəs rejimini pozan düşmənin zirehli texnikası, artilleriya bölməsi, həmçinin atəş nöqtələrinə çıxardığı ağır artilleriyası, döyüşə hazır vəziyyətə gətirilən zenit-raket kompleksləri dəqiq zərbələrlə məhv edilir.

❖❖❖

Prezident İlham Əliyev Rusiyanın RBK televiziya kanalına müsahibə verir. Dövlət başçısı tərəflər arasında atəşkəsin elan olunması məsələsinə aydınlıq gətirərək deyir: *"Biz öz bəyanatlarımıza sadiqik, Azərbaycan öz üzərinə götürdüyü öhdəlikləri həmişə yerinə yetirən ölkədir. Danışıqlar aparılması üçün sabaha razılıq verilib. Buna görə hər şey ATƏT-in Minsk qrupunun fəaliyyətindən, onların iş qrafikindən asılıdır".*

Prezident qətiyyətlə vurğulayır ki, əgər erməni tərəfi atəşkəs rejiminə sadiq olarsa, onda siyasi nizamlama mərhələsi başlanacaq, danışıqlara məcburetmə fazası başa çatacaq. Amma Azərbaycan axıra qədər gedəcək.

Ali Baş Komandan bir daha Ermənistan rəhbərliyinə səslənərək dedi ki, Azərbaycanla ultimatumlar, təhqirlər və şantaj dilində danışmaq olmaz. Paşinyan Azərbaycana 7 ultimatum təqdim edəndə, azərbaycanlıların hisslərini təhqir edəndə buna görə cəzalandırılmalı idi və bu gün Azərbaycan bunu reallaşdırır.

❖❖❖



Humanitar atəşkəs rejiminə əməl etməyən Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində hücum etməyə cəhd göstərir.

Düşmən günorta saatlarında Tuğ kəndi istiqamətindən Hadrut istiqamətinə, Aragül və Banazur istiqamətlərindən isə Cəbrayıl istiqamətinə hücum etməyə cəhd edir.

Bölmələrimizin gördüyü qabaqlayıcı tədbirlər nəticəsində xeyli canlı qüvvə və döyüş texnikasını itirən düşmən geri çəkilməyə məcbur olur. Müdafiəni düzgün təşkil edən bölmələrimiz düşmənin irəliləməsinin qarşısını alır, onu tələyə salaraq darmadağın edir. Döyüş toqquşması nəticəsində düşmənin 38 nəfər canlı qüvvəsi, 2 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, 7 ədəd topu və sursatla dolu 2 yük maşını məhv edilir.

❖❖❖

Humanitar atəşkəs rejimini kobud şəkildə pozan Ermənistan silahlı qüvvələri Ağdamın kəndlərini və saat 22:30-dan başlayaraq Tərtər şəhərini artilleriya atəşinə tutur.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***



Azərbaycan.- 2023.- 10 oktyabr.- S.9.